# Papa Fransisk COP29-un əhəmiyyətindən danışıb



Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əhəmiyyətini vurğulayıb.

AZƏRTAC xəbər verir ki, Papa Fransisk yanvarın 9-da Müqəddəs Taxt-Tacda akkreditə olunmuş diplomatik korpusun rəhbərləri üçün təşkil edilən ənənəvi illik görüşdə Bakıda keçirilən COP29-da iqlimlə bağlı tədbirlər üçün daha çox maliyyə resurslarının təmin edilməsinə dair qərarlar qəbul olunduğunu xatırladıb.

"Mən inanıram ki, bunlar iqlim böhranından çox təsirlənən və böyük iqtisadi borc yükü altında olan bir çox ölkə üçün resursların bölüşdürülməsinə imkan verəcək. Bunu nəzərə alaraq, varlı xalqlardan xahiş edirəm ki, borclarını heç vaxt ödəyə bilməyəcək ölkələrin borclarını bağışlasınlar. Bu, sadəcə olaraq, həmrəylik və ya səxavətlilik deyil, hər şeydən əvvəl, bu gün getdikcə daha çox dərk etdiyimiz bərabərsizliyin yeni forması fonunda ədalət aktıdır: xüsusilə qlobal Şimal ilə Cənub arasında mövcud olan "ekoloji borc". Həmçinin bu "ekoloji borc"un işığında yoxsul ölkələrin xarici borclarını insan inkişafının inteqral inkişafını təşviq etmək üçün effektiv, yaradıcı və məsuliyyətli siyasət və proqramlara çevirməyin effektiv yollarını tapmaq vacibdir", - deyə Roma Papası qeyd edib.

Pontifik müqəddəs Taxt-Tacın bu prosesi müşayiət etməyə hazır olduğunu vurğulayaraq bildirib: "Bilirik ki, artıq arxasında gizlənə biləcəyimiz heç bir sərhəd, yaxud siyasi və sosial maneə yoxdur".

Azərbaycan.- 2025.- 10 yanvar (№4).- S.2.